

# SONUNCU OLMAYAN KİTAB

**_Qərib MEHDİ_**

***Sənətdə təzə yol açmaq hər sənətkara nəsib olmur. Açıbsa, korifeydir, söz meydanında əbədiliyini qazanmış xoşbəxt qələm sahibidir. Onlardan biri də dünya şöhrətli Cənubi Azərbaycan şairi, məşhur "Heydərbabaya salam" poemasının müəllifi Məmmədhüseyn Şəhriyardır. O, xatırlanma şəklində yazılmış, milli adət-ənənələrimizlə süslənmiş bu poema ilə sənətdə yeni, orijinal yol açdı. Bu əsərin təsirinə, sehrinə düşmüş onlarla söz adamı həmin açılmış yolla gedərək, sevilən və seçilən əsərlər yaratmışdır. Şair-alim Bayram Ağrıdağ "Sarıbabaya salam"ı yazmaqla həmin yolun zəvvarlığını məmnuniyyət hissilə qəbul etmişdir. Təkrarçılıqdan kənar durmaqla mürşidin müridi olmaq fərəhvericidir. Daha dəqiq desək, yolun özəl müəllifi Şəhriyar olsa da, bu yola tapınan başqa "sürücülərin" hər biri öz "qələm-maşını" ilə hərəkət edir. Onlardan biri də şair-alim Bayram Ağrıdağdır.***

Nəfis tərtibatı və sanbalı ilə diqqət çəkən 250 səhifəlik kitab "Sarıbabaya salam"la açılır. Bayram müəllimin yeniyetməliyi Qərbi Azərbaycanın Vedibasar mahalında keçib. Rəmzi mənada hər yurdda bir Heydərbaba dağı var. Sarıbaba da Vedibasarın Heydərbabasıdır. Əsrləri yola salan, qanlı-qadalı, acılı-şirinli hadisələrə şahidlik edən başı ağ çalmalı, yamacı güllü-çiçəkli, yaşıl meşəli, buz bulaqlı Sarıbaba yaddaşında saxlayıb gələcəyə çatdırmaq üçün başına gələnləri "nəvəsi" Bayrama danışmışdır. Şair "nəvə" də eşitdiklərini, üstəlik də gördüklərini oxucularına çatdırmağı özünə borc bilmişdir:

***Sarıbaba, bilən yoxdur yaşını,***
***Dik tutmusan tarix boyu başını.***
***Ocaq bildim hər qayanı, daşını,***
***İndi görən hal-əhvalın necədir?***
***Göz oxşayan yamac-yalın necədir?***

***

***Uşaqlığım ətəyində boy atlı,***
***Kim deyir ki, xatirələr boyatdı?***
***Sarıbaba, bu da belə həyatdı,***
***Neçə ildi sənə həsrət yaşadım,***
***Hər qayanda, hər daşında var adım.***

Hər bəndində beş misra cəmlənən bu şeir janrı yaradıcı adam qarşısında gördüklərini, bildiklərini bədii dillə gerçək tarixə çevirmək üçün böyük imkanlar açır. Təbiətin və cəmiyyətin "landşaftları" bədii materiala çevrilir - çiçəkdən tutmuş böcəyə, daş parçasından tutmuş adama kimi. Saya gəlməyən bu varlıqlar epizodik obrazlar silsiləsi yaradaraq poemanı epopeyalaşdırır. Görün, nə qədər insan özünü Bayram və Bayram kimi müəlliflərin əsərlərində tapır. Vücudnamə tək insanın ilkinliyindən son anına qədər təsvir olunan şeir formasıdır. Bu bir alətin solo ifasına bənzəyir. Şəhriyarvari, o cümlədən Bayramvari ifa təqdimatı isə zənginliyi ilə böyük bir orkestri xatırladır. Dediklərimizi sübuta yetirmək üçün "Sarıbabaya salam" kitabına və orada yer alan eyniadlı poemaya müraciət etsək, yaxşıdır.

Məktəb illərinin kövrək təəssüratları təsirlidir. Burada məktəbə varmaq, sinif yoldaşlarını birər-birər yada salmaq, onların fərdi xüsusiyyətlərini səciyyələndirmək janrın vacib şərtlərindəndir:

***İlk qədəmim, ilk dərs günüm yadımda,***
***Həyəcandan yaddan çıxdı adım da.***
***Sevinirdi qohum-qardaş, yadım da,***
***Atam mənə təzə çəkmə almışdı.***
***Sinfə qədər özü yola salmışdı.***

Çoxsaylı uşaqlardan birini yada salaq:

***Sinfimizin gözü - gözəl Qətibə,***
***Hər sözü, söhbəti qəzəl Qətibə,***
***Uzadardı hamıya əl, Qətibə,***
***Çətinə düşənə kömək edərdi,***
***Hamıdan axırda evə gedərdi.***

Sonra əsərdə müxtəlif fənlərdən dərs deyən müəllimlər xatırlanır. Onların içərisində taleyindən yarıyanlar da var, vaxtsız dünyasını dəyişənlər də. Müəllifin adaşı Bayram müəllim necə xatırlanır:

***Bayram müəllim - qəlbimizin səhəri,***
***Cəmi bir il oldu sinif rəhbəri.***
***O sevdirdi bizə kitab-dəftəri,***
***Çox tez gəldi, heyif, ömrünün sonu,***
***Məktəbimiz vaxtsız itirdi onu.***

Evdən alınan tərbiyə bir az da məktəbdə təkmilləşirdi. Gələcəyin vətənsevər, dürüst, yüksək əxlaqi keyfiyyətlərə malik gəncliyi bu qarşılıqlı cütlüyün hesabına bəhrəli olurdu:

***Kənd içində söhbət edib gülərdik,***
***Dərdi-qəmi qəlbimizdən silərdik.***
***Böyük-kiçik yerini də bilərdik,***

***Ağsaqqala hər cür hörmət edərdik.***
***"Ölümə get!" desəydilər, gedərdik.***

Oxuduqca obrazlar, müxtəlif peşə sahibləri - kənd mətbəxinin əlitamlı bişiriciləri, inamlı ilahiyyatçıları, loğmansayağı həkimləri, sınıqçıları, ənənəyə bağlı bayram törənlərinin iştirakçıları və s. oxucunun gözləri qarşısında sıralanır. Hətta şair kəndə məxsus bir adəti də göz ardına almır, onu yumor hissi doğursa da, nəzərə çatdırır:

***Az deyildi kənddə "Qəhrəman ana",***
***Hər biri namuslu, ismətli sona.***
***Əzyəti, cəfanı verərək cana,***
***Böyütmüşlər azı on, on bir övlad,***
***Kor olurdu baxsa onlara hay - yad.***

Təşkilatlanmaq bizdə gec alınır. Bunun da ağrısını çəkməli oluruq. Fərdi çəkişmədə, dava-dalaşda üstünlüyümüz şəksizdir. Bu hal erməni uşaqları ilə azərbaycanlı uşaqlar arasında özünü büruzə verir:

***Hərdən-hərdən hay düşərdi obaya,***
***Dığalarla girişərdik davaya.***
***Əl atardıq daş-çınqıla, yabaya,***
***Əzişdirib burunların ovardıq,***
***Çaqqalları yuvasına qovardıq.***

İlk oyanmaların, sevgilərin çoxu vüsala qovuşmur. Amma ömür boyu da xatirələrdə yaşayır. Çünki o hisslər beyinlərdə, ürəklərdə açılan ilk pozulmaz şırımlardır:

***Sarıbaba - gəncliyimin sirdaşı,***
***Ulu Ağrıdağın kiçik qardaşı.***
***Daşında, qayanda qurdum bardaşı,***
***İlk sevgilim görən indi hardadı?***
***Hansı eldə, köçkünlükdə, dardadı?***

Ermənilərə yaşamaq üçün torpağımızda, ocağımızın başında yer verməyimiz, yerlilərin didərgin düşməsi ilə nəticələndi. Halal yurdlarımızdan qan-qada bahasına özlərinə "vətən" düzəldənlər türk düşmənlərinə söykənərək, təşkilatlanaraq, dişlərinə qədər silahlanaraq onlara səxavətlə qucaq açanları yurd-yuvalarından qaçqın-köçkün saldılar. Belə hadisələr Vedibasarda da baş verdi. Şair bunları ürək ağrısı ilə təsvir etməsəydi, əsərini tamamlaya bilməzdi:

***Kömək etdi tülkülərə "Ağ ayı",***
***Eşitmədi eldən qopan harayı.***
***Çağırsaq da köməyə biz O tayı,***
***Səsimizə səs verənlər olmadı,***
***Ata yurddan bir nişanə qalmadı.***

***

***Yolumuzu "hay kirvələr" bağladı,***
***Nalə çəkib arvad-uşaq ağladı.***
***Sinəmizi çalın-çarpaz dağladı,***
***Pərən düşdük, el-obamız dağıldı,***
***Bu həqiqət elə bilmə nağıldı…***

Müəllif "nağıl" sözünə boşuna işarə etmir. Biz nağıla meyilli xalqıq, hər deyilənə inanırıq. Ayılanda bir az gec olur. Amma çıxış yolu var. Hansıdır o çıxış yolu? Şair göstərir:

***Sarıbaba, payla xışı, yabanı,***
***Çağır köməyinə eli-obanı.***
***Bu üzdən harayla Heydərbabanı,***
***Səslə ərənləri havarla, hayla,***
***Qoy birləşsin O tayımız Bu tayla!***

Şairin çağırışı yerini alanda, Cənublu-Şimallı, Şərqli-Qərbli parçalanmış Azərbaycan torpaqları birləşəndə bütün problemlərimiz birdəfəlik həllini tapacaq, dünyada keçərli söz sahibi olacağıq.

Ta qədimdən toplumlar güclü varlıqlara - Allaha, peyğəmbərlərə, imamlara tapınıblar. İnsanlar qul sədaqəti ilə onların qulluğunda durmaqdan, hətta bu varlıqları adlarına çevirməkdən şərəf duyublar: Allahqulu, Məmmədqulu, İmamqulu və s. Bu bəs etməyib. Bütpərəstlik nişanəli olan seçilmiş canlı varlıqları (şiri, ayını, qurdu…), təbiətin yaratdığı dilsiz möcüzələri (başı qarlı dağları, vüqarlı ağacları, şəfalı bulaqları…) sitayiş ediləsi totem, inam ocağı kimi qəbul etmişlər. Bunların arasında əzəmətli uca dağların xüsusi yeri var. Bu ucalıq, əyilməzlik rəmzi həmişə sənətçilərin hədəfində olmuşdur. Qüdrətli sənətkarlar zaman-zaman dağlarla mükaliməyə girmişlər. Nəyin naminə? Ustadlar bununla mənəvi varidatı ortalığa qoymaq istəmişlər. Haqq aşığı Dədə Ələsgər "Dağlar" şeirini açımında sirlər yatan aşağıdakı bəndlə bitirir:

***Həsənnənə, Həsənbaba qoşadı,***
***Xoşbulaq yaylağı xoş tamaşadı.***
***Arsız aşıq eldən ayrı yaşadı -***
***Ölsün Ələsgərtək qulların, dağlar.***

Yerdəyişməyə fikir Verin: hərdən insan dağ adı daşıyır (Qoşqar, Murov), hərdən dağ insan adı (Həsənnənə, Həsənbaba) daşıyır. Allahın, peyğəmbərin, imamların qulu olmaqdan şərəf duyanlar öz sıralarında Aşıq Ələsgəri də görürlər. Aşıq bir az da irəli gedib özünü həm də dağların qulu (qulluqçusu) hesab edir. Və bu ucalıqdan yan duranlara, vecsizlərə ölüm arzulayır. Bu əxlaq norması insana təkamül keyfiyyətlərini aşılayır. Böyük şairimiz Bəxtiyar Vahabzadə dağlar sevdasından, çək-çevirindən sonra Aşıq Ələsgərlə eyniləşməyini etiraf edir. Yəni, axır ki, "Bəxtiyar da oldu qulu dağların", - deyir.

***Məmmədhüseyn Şəhriyarı da Heydərbaba dağı əlindən tutub dünyanı dolaşdırıb.***

***Xalq şairi Səməd Vurğunun "Dağlar"ı aşıqların dilindən, sazından düşmür.***

***Bu dağların sırasında öz çəkisi ilə Bayram Ağrıdağın da Sarıbaba dağı var. Qoy olsun! Bu sıralanmada yer almaq şairin uğurudur.***

Şəhriyar, Bəxtiyar qul olan dağa - ucalığa Bayram Ağrıdağ dünəndən qul olub. O, yaxşı bilir ki, belə qul olmaq ağayanalıqdan keçir.

Kitabı oxuduqca oxucu şairin müxtəlif mövzulara həsr etdiyi poeziya nümunələri ilə üzləşir. Bədii mətnlər yaşadığımız çağın bətnindən doğur. Valideynlərə, qələm dostlarına, əsrimizin bəlası olan koronavirusa, söz qamçısına layiq naqis adamlara, Qarabağ dərdimizə münasibət bildirən müəllif nədən razı qaldığını, nədən narahat olduğunu dilə gətirir. Bu mövzuların içində Qarabağ mövzusu onu daha çox əndişələndirir və düyünlü vəziyyətdən çıxış yolu axtarır. (Kitab nəşr olunanda İkinci Qarabağ müharibəsində qazandığımız parlaq qələbənin sorağını hələ almamışdıq).

***Köz qatmasaq közümüzə,***
***Kim baxacaq sözümüzə?!***
***Güvənməsək özümüzə,***
***Qarabağ qayıdan deyil.***

Şairin qələm dostlarından bir çoxu, o cümlədən, Aydın Murovdağlı da narahatdır: "Vətənin vətəni Şuşa yoxdursa; Mənim ad günümün adını çəkmə". Vəziyyət belə fikirləri diqtə edir. Bu notlar kitab müəllifinin özündə də var. Ancaq səfərbər olmaq nikbinliyini, məsuliyyətini itirmir. O, bu işıqlı ümidi Aydının yadına salır:

***Alıb güc-qüdrəti Oğuz qanından,***
***Ərənlər keçəcək şirin canından.***
***Babək qılıncını sıyırıb qından,***
***Düşmənin başına qəfil çalacaq!***

Müəllifin qələbəyə inamı 2020-ci ilin 44 günlük savaşında özünü doğrultdu.

Şair yeri gələndə nakəslərə, insanlıq cərgəsinə qatılmağa layiq olmayanlara tənqid dəmətini təqdim etməyi də vacib sanır. Onun "Şərbaz" şeirində müalicə xarakterli, "iynələrini" aşkar görürük:

***Adına ləkəsən obanın, elin,***
***Yetənə şər atır zəhərli dilin.***
***Çürümüş çör-çöpsən önündə selin,***
***İç üzün açılır hər gələndə yaz.***
***Yalandan, böhtandan əl çək, ay şərbaz!***

Arxasında namuslu, dəyanətli, qayğıkeş bir ev çırağı - qadın olanda, bax onda kişi məğlubedilməz olur.

Xüsusilə, həssas zümrəyə məxsus qələm sahibləri buna daha çox möhtacdır. Mübahisəsiz bir fikir söyləmək olar: Nizami Gəncəvinin Afaqı, Əhməd Cavadın Şükriyyəsi, Hüseyn Cavidin Müşkünazı, Cəfər Cabbarlının Sonası, Rəsul Rzanın Nigarı, Nəriman Həsənzadənin Sarası, Əli Kərimin Elzası, Balaş Azəroğlunun Mədinəsi, Xəlil Rza Ulutürkün Firəngizi və s. onların böyüklüyünə zəmin olublar. Bu baxımdan Bayram Ağrıdağ hər kitabında böyük vurğunluqla "Gül" rəmzli ömürdaşından söz açır. Şairin buna haqqı çatır. Axı o "Gül" həm şairin ilham pərisi, həm də uşaqlarının qayğısını çəkən, təlim-tərbiyəsi ilə məşğul olan bir anadır. İnanıram ki, şair bu müqəddəs varlığa yazdıqlarını bir kitaba toplayıb "Gülnamə" adı altında oxuculara çatdıracaqdır. "Gülnamə"dən nümunə üçün bir bənd misal çəksək, yerinə düşər.

***İlk gündən seçmişik haqq yolu, Gülüm,***
***Kəssə də nadanlar sağ-solu, Gülüm,***
***Olmuşuq İlahi eşq yolu, Gülüm.***
***Bu yolda nə çaşdıq, nə də ki, azdıq,***
***İlahi sevgiyə bir dastan yazdıq!***

Bayram Ağrıdağ iki "qohum" sahənin müəllifliyini daşıyan qələm sahibidir. Onun elmi-pedaqoji, ədəbi-bədii sahələrdəki fəaliyyəti diqqətəşayandır. Bədii söz sənətindəki uğurlarını nəzərə alan Azərbaycan Yazıçılar Birliyi şairi rəsmi olaraq öz sıralarına qatmışdır. Elmi istiqamətinin ünvanı dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaradıcılığıdır. O, həm namizədlik, həm də doktorluq işini Nizami yaradıcılığını araşdırmağa (xüsusilə, elmi-pedaqoji görüşlərini) həsr etmişdir. Elə özü də Nizami şəhərində - Gəncə Dövlət Universitetində çalışır. Sanballı imza sahibləri Bayram müəllimin həm elmi, həm də bədii yaradıcılığı ilə bağlı qiymətli fikirlər söyləmişlər. Müəllif ilk növbədə özünü alim hesab etdiyi üçün biz də həmin sahə ilə bağlı fikirləri önə çəkdik.

İmzaların siyahısına nəzər salsaq, artıq söz deməyə, təhlillər aparmağa, müqayisələr etməyə ehtiyac qalmaz. Alim haqlı olaraq, haqqında deyilənləri kitabına daxil etmişdir.

Söyləmələr akademik, əməkdar elm xadimi, millət vəkili Nizami Cəfərovun dəyərləndirməsi ilə başlayır ("Peşəkar tədqiqatçı və təəssübkeş vətəndaş"). Sonra imza sırası davam edir: professor Mübariz Yusifov ("Azərbaycanı dünyaya tanıdan iki dahi haqqında fundamental əsər", "Pedaqoji elmimizə böyük töhfə"), əməkdar elm xadimi, professor Oruc Həsənli ("Çox sanballı elmi-tədqiqat işi"), professor Fərahim Sadıqov ("Fundamental elmi-tədqiqat əsəri"), professor Hüseyn Əhmədov ("Dərin elmi-tədqiqat əsəri"), professor, əməkdar müəlim Əbülfəz Quliyev ("Diqqətəlayiq hadisə"), professor, əməkdar elm xadimi Fərrux Rüstəmov ("Yüksək elmi-nəzəri və praktik dəyərliyi ilə seçilən monoqrafiya"), professor, əməkdar müəllim Akif Abbasov ("Uzunmüddətli axtarışların məhsulu"). Minnətdaram ki, Bayram müəllim bu sətirlərin müəllifinin də üç yazısını kitabına daxil etməyi lazım bilmişdir.

***Qədimdən üzü bəri qələmlə yazılan, poçt (və ya qasid) vasitəsilə ünvana çatdırılan məktublar (məqalələr, rəylər) ədəbiyyatın vacib janrlarından (epistolyar) biri hesab olunurdu. Texnikanın inkişafı bu qiymətli xəzinənin yönünü dəyişdi. İndi bu işi internet - sosial şəbəkələr öz üzərinə götürüb. Bayram Ağrıdağın ədəbi-bədii yaradıcılığına oxucular və qələm dostları tərəfindən sosial şəbəkələrdə kifayət qədər üstünləyici reaksiyalar var. Hər deyim şair üçün düşündürücü, sevindirici haldır. O, hər yeni kitabını çapa hazırlayarkən oxucularının arzularını nəzərə alır. Elə buna görə də şairin yaradıcılığı getdikcə püxtələşir.***

Bu bizim qənaətimizdir. Şairin son olmayan (bizə görə) sonuncu kitabında bir yır-yığış, tamamlama hiss olunur. Sanki o, bədii yaradıcılığına son verdiyinə işarə edir. Hətta bu təəssüfləndirici fikri məndən gizlətmədi də. Görəsən, bunu doğuran səbəblər haradan qaynaqlanır?

İki sahədə çalışmaq hünər, tükənməz enerji tələb edir. Bəlkə, müəllif bundan sonrakı fəaliyyətini bütövlükdə elmi-pedaqoji işə bağlamağa üstünlük verir?

**"Sarıbabaya salam" Bayram Ağrıdağın beşinci kitabıdır. Klassik ədəbiyyatımızda bu saya "Xəmsə" deyirlər. Şair bundan sonra şeir yazmayacağı barədə daxili qərar verə bilər. Görək, qələmi onun bu qərarı ilə barışacaqmı? Bu sualın cavabı Sirri-Xudaya bağlıdır. Bir onu bilirəm ki, oxucular yaradıcılığını sevdikləri müəllifdən yeni-yeni ədəbi-bədii məhsullar gözləyirlər. Oxucularınızın fikrinə mən də şərikəm, Bayram müəllim. Hələ irəlidə dilə gətiriləcək neçə-neçə söz, açılacaq neçə-neçə mətləblər var…**